## "Şuşa İli"

O faktı hökmən yada salmağı lazım bilirik ki, dünyada, bəşər sivilizasiyasının boy verdiyi, kök saldığı bütün ölkələrdə mədəniyyət paytaxtı sayılan əyalət şəhərləri çox azdır. Cənubi Qafqazın "öz şirəsində qaynayaraq" nəinki məxsus olduğu regionun, ümumilikdə Qafqazın incisinə çevrilən Şuşa belə nadir şəhərlərdən biridir.

Əsası 270 il əvvəl Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan Şuşa zamanının ən müasir şəhərsalma prinsiplərinə cavab verən tələblər əsasında yaradılmışdı.

Xalq arasında daha çox Qala adı ilə çağırılan şəhər Pənahabad və ya Şuşa adlandırılırdı.

Burada salınan, hər biri ayrı-ayrılıqda avtonom xüsusiyyətləri ilə diqqəti cəlb etsə də, ümumi şəhər kompleksinin tamamlanmasına xidmət edən məhəllələr koloriti ilə fərqlənirdi. Seyidli, Köçərli, Mamayı, Dördçinar, Çölqala, Merdinli, Dəmirçilər, Xocamərcanlı və sonradan sayı 17-ə çatdırılacaq digər hər bir məhəllə bu zərif tonlar arasında əlaqə, uyğunluq yaradaraq şəhərin harmoniyasını tamamlayırdı. İlk vaxtlar daha çox özünün relyefinə və təbii landşaftına və xüsusi olaraq dövrəsinə çəkilən böyük və güclü səddi ilə seçilən şəhər, artıq XIX əsrin ortalarında həm də inkişaf edən, formalaşmaqda olan mədəniyyət mərkəzi kimi cəlbedici idi.



# ŞUŞA ruhumuzun yaratdığı şəhər



**Mahirə HÜSEYNOVA,**
*filologiya elmləri doktoru, professor*

Bu, Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşən Qarabağ xanlığının Araz çayından Göyçə gölünədək, Tərtər çayından başlayaraq düzənlik və dağlıqları- dağ Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə, Mığrı, Tatev və Qarakilsəyədək uzanan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad, Şamaxı xanlıqları ilə həmsərhəd olan geniş ərazidə hər bir dövlətin başlıca missiyasını təmin etməkdən ibarət idi.

Bu cür ictimai-siyasi şəraitdə yarandığı ilk vaxtlardan xanlığın paytaxtına çevrilən Şuşa unikal memarlıq nümunələri ilə seçilməyə başlayır, "Qafqazın sənət məbədi"nə çevrilirdi. Ötən 60-70 ildən sonra şəhər təkcə "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" kimi yox, həm də özünəməxsus ədəbi mühiti ilə seçiləcək. Bu da maraqlı detallardandır ki, Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti ilk növbədə, xanəndə və sazəndələr ustad-şəyird müstəvisində inkişaf edirdisə, Şuşa mühitinin yetirməsi olan, Azərbaycanda bəstəkarlığın əsasını yaradan Üzeyir Hacıbəyov ilə peşəkar musiqi təhsilinin əsası yaradılacaq.

Bütün bunlar sonra olacaq.

XVIII-XIX əsrlərdə tikilən Şuşa məscidləri məhəllə meydanlarının ayrılmaz və ən başlıca komponentlərinə çevrilirdi. Məhəllə məscidlərinin minarələrinin dekoru və otaqların divarları yerli rəssamlar tərəfindən işlənirdi. Bu rəssamların içində şair, rəssam, astronom, ədəbiyyatşünas, riyaziyyatçı, nəqqaş, tarixçi, xəttat və musiqişünas Mir Möhsün Nəvvab xüsusilə seçilirdi. Onu əsərlərinin məzmunu, səviyyəsi və həcmi etibarilə orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsinə aid edilirdi. Müasirləri Mir Möhsün Nəvvabı Azərbaycan dilində yazılmış "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı") risaləsinin müəllifi, özünün açdığı mətbəədə kitablar naşiri, müəllim, "Məclisi-fəramuşan" adlı ədəbi, "Məclisi-xanəndə" adlı musiqi məclislərinin yaradıcısı kimi tanıdılar. Bu məclislərdə Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Eyyub Baqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və başqaları müntəzəm iştirak edirdilər.

Onların, ümumiyyətlə, 100-dən artıq şairin həyat və yaradıcılığı Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində təqdim edilirdi. Yeri gəlmişkən, bu təzkirəni ədəbiyyat tariximizlə bağlı ilkin nümunə saymaq olar.

Riyaziyyat, kimya və astronomiya ilə maraqlanan Nəvvab 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabında göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib edirdi. "Nəsihətnamə" əsərində gəncliyə məşhur nəsihətlər verən Nəvvab "Kifayətül-ətfal, Nurül-Ənvar", "Pəndnamə" və digər kitabları zəhmətkeş, ardıcıl alim ömrünü əks etdirirdi. Bütün bunlarla bərabər, Nəvvabın bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir-neçə bina və məscidə vurduğu naxışlar bizə yadigar qalıb.

Sonralar məşhur musiqi traktatı kimi tanınacaq "Vüzuhül-ərqam"ı 1913-cü ildə Bakıda nəşr etdirən ensiklopedik şəxsiyyət həmçinin "Kəşfül-həqiqəti-məsnəvi"nin müəllifidir. Bu risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur, ilk dəfə olaraq, dəstgah terminindən istifadə edirdi. Ümumiyyətlə, o, Qarabağda məlum olan altı dəstgahın, həmçinin Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını çəkir, onların mənşəyini, adlarının etimologiyasını araşdırıb.

Şuşa ədəbi mühitinin formalaşmasında mühüm rolu XVIII əsr Azərbaycan poeziyasının ən görkəmli şairlərindən biri, yeni salınan, tikinti-quruculuq işlərinin vüsət aldığı illərdə, əsrin 60-cı illərində Şuşa məscidlərinin birinin nəzdindəki mədrəsədə müəllimlik edən, daha sonra xanlıq paytaxt sakinlərinin sevimlisinə çevrilən, xalq arasında böyük hörmət və nüfuzu ilə sarayın diqqətini cəlb edən, burada saray eşikağası vəzifəsindən baş vəzirliyə qədər yol keçən Molla Pənah Vaqif oynayıb.

Vaqifin ərəb və fars tərkiblərindən təmizlənmiş aydın dildə yazılan şeirləri o hörmət və nüfuzun mayasında dururdu. Heca vəznində yazılan, Azərbaycan ədəbi dilinin formalaşmasında əsas rol oynayan xalq danışıq dilinin bütün müsbət keyfiyyətlərini özündə ehtiva edən o dil məhz Vaqifin yaradıcılığı ilə ədəbi-bədii dil səviyyəsinə qaldırılıb. Mənalı, mənalı olduğu qədər də azərbaycanlı- türk ruhuna bürünmüş o şeir nümunələri ağızdan-ağıza gəzir və müəllifini təkcə Qarabağda deyil, bütün Azərbaycanın sevimlisinə çevirir və məşhurlaşdırırdı. Buna görə idi ki, o zamanların zərbi-məsəllərindən biri olan "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz" məsəli bütün Qafqazda dolaşırdı.

Vaqif ona görə Şuşa ədəbi mühitinin formalaşdırılmasının memarlarından biri kimi qəbul edilir ki, xanlığın baş vəziri sadə xalq dilində yaranan və böyük mənəvi keyfiyyətlərin transformasiyası olan poetik nümunələri ilə hakim təbəqə və xalq kütləsi arasında ortaq körpü yaradırdı. Sonradan digər ədəbiyyat nümayəndələri də o körpüdən keçəcək.

Maraqlı olansa bu idi ki, Vaqifin şeirləri ancaq azərbaycanlılar deyil, Azərbaycan dilindəki şeirləri erməniləri də öz cazibəsinə salırdı. Onlardan ikisinin, Mirzə Yusif Qarabaği və Mirzəcan Mədətovun bilavasitə təşəbbüsü və pul vəsaiti ilə Molla Pənahın şeirlərindən ibarət "Məcmueyi-divani Vaqif və digər müasirin" kitabı 1856-cı ildə Teymurxanşurada (indiki RF-nın Dağıstan vilayətində) buraxıldı.

Ümumiyyətlə, Şuşanın Azərbaycanın mədəniyyət mərkəzinə çevrilməsi prosesinin necə baş verdiyini Qafqazın 10-cu əsrdən 1862-ci ilə qədər tarixinə dair sənədlərin Rusiya hakimiyyət orqanlarının təşəbbüsü ilə nəşr olunan "Qafqaz Arxeoqrafiya Komissiyasının aktları - Qafqaz canişini Baş İdarəsinin arxivindən çıxarılmış sənədlərin rəsmi nəşri"ndə izləmək mümkündür. Həmin nəşrləri günün bu günündə Qafqazın etnoqrafik xəritəsi kimi qəbul etmək mümkündür.

Bu nəşrlərin çap olunmuş on iki cildində Qafqaz xalqlarının tarixinə dair müxtəlif məlumatlar öz əksini tapıb. Burada ərəb salnamələri, fərmanlar, qucarlar (nizamnamə məktubları) və digər aktlar, əsasən XIV - XIX əsrin birinci yarısını əhatə edən dövrlər üzrə gürcü dilində, həmçinin erməni, azərbaycanlı, rus, ərəb, fars və türkcə tərcüməsi ilə yanaşı, yerli xan və sultanların şəcərələri, Qafqaz qubernatorunun hakimiyyəti dövrünə aid sənədlər yer alırdı.

Xidməti işləri ilə əlaqədar müxtəlif coğrafiyalarda, o cümlədən Şuşada olan nəşrin redaktoru A.Berje arxiv sənədlərinə əsasən yazırdı: "Vaqif mühəndislik elmini yaxşı bildiyinə görə Şuşa şəhərinin ətrafına çəkilmiş divarların tikintisi və möhkəmləndirilməsinə rəhbərlik ona etibar edilmiş, həmçinin onun mükəmməl şairliyi və alimliyi haqqında xəbərlər xanlığın hüdudlarından uzaqlara yayılırdı".

1851-ci ilin martında Adolf Berjenin rəhbərlik etdiyi Qafqaz Arxeoqrafiya Komissiyasına Qafqaz Canişini Dəftərxanasının Şərq dilləri üzrə tərcüməçisi, polkovnik Mirzə Fətəli Axundov İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin üzvü seçildi, "Qafqaz Arxeoqrafiya Komitəsinin aktları" məcmuəsinin tərtibçisi və tərcüməçilərindən biri oldu.

Mirzə Fətəli Axundov Şuşa, Qarabağ mühitinə kifayət qədər yaxından bələd idi və onu qeyd edək ki, onun Azərbaycan ədəbiyyatında dramaturgiyanın əsasını qoyan komediyalarından ikisinin- "Hekayəti- Müsyö Jordan nəbatat və dərviş Məstəli şah caduküni- məşhur" və "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") əsərlərinin mövzusu buralarla bağlıdır.

M.Axundov öz yaradıcılığı ilə milli ədəbiyyatımızı istər kəmiyyət, istərsə də keyfiyyətcə yeni mərhələyə keçirmişdir. Dövrünün təkcə ədəbiyyat deyil, həmçinin aktual ictimai-siyasi məsələləri və problemləri, xalqın geniş mənada maraqlarına cavab verən yeni mündəricə, yeni ideyalar gətirən Axundov ədəbiyyatımızda nəinki yeni janrların, həmçinin yeni ideallların əsasını qoyurdu. Buna görə idi ki, Axundov ancaq ədəbiyyatın tarixində yazıçı-daramaturq kimi deyil, mənsub olduğu xalqın həyatında böyük maarifçi kimi də qaldı. Komissiyadakı işi ilə əlaqədar arabir olsa da Qarabağa, onun incisi olan Şuşa şəhərinə səfərləri zamanı o, buradakı mühitə yaxından bələd olmuş, dövrünün ən görkəmli Azərbaycan şairi Qasım bəy Zakir, "Nəva" təxəllüsü ilə şeirlər yazan, Cavanşir nəslindən olan Cəfərqulu xan, sonralar Azərbaycanın qadın şairləri arasında aparıcı yerlərdən birini tutan, incə ruhlu lirik şeirlərin müəllifi kimi ədəbiyyat tariximizdə məxsusi yerində qərarlaşan Xurşidbanu Natəvan və digərləri ilə yaxından tanış olmuş, hətta onların bəziləri ilə mənzum məktublaşmaları ilə də yadda qalmışdır. Belə məktublarında incə zarafatlarından və atmacalarından da qalmayan Mirzə Fətəlinin Zakirə yazdığı şeir az qala 200 ilə yaxındır ki, yaddaşlarda qərarlaşıb:

*Qasım bəy, eşitdim yaxın olubsan,*
*Xan qızına, axır nədir bu rəftar?*
*Edibsən xubları yüz yol imtahan,*
*Eylərsən onlara yenə etibar.*

*Yeyib otağında şamu naharın,*
*Kəsdiribsən yasdığının kənarın,*
*Eşidibsən şirin-şirin göftarın,*
*Kişi, sənin vallah əcəb işin var!*

Mütəfəkkir incə zarafatları ilə bərabər, təməlində gələcək fəsadlar üçün gördüyü təhlükəli məqamların aradan qaldırılmasının nə qədər faydalı olacağını qeyd edir:

*Özgə cəfalarım dursun kənarə,*
*Nə lazım hər birin salmaq sümarə.*
*Xeyir işinə onun mən o diyarə,*
*Şadu xürrəm getdim, qayıtdım bəs xar.*

Belə məqamlardan biri kimi, XIX əsr Azərbaycanı üçün xarakterik olan bir cəhəti, xalqı dini fanatizmə çəkən "din xadimlərinin" cəmiyyətdə dominantlığa can atmasını, onun üçün işıq mənbəyi olan elm və təhsilin dirçəlməsinə qarşı göstərilən cəhdlərin perspektivi "Cəfərqulu xana" şeirində dönə-dönə yada salınır:

*Səlam olsun məndən sərkar xana,*
*Mollalardan bir az edim şikayət.*
*Münkirdirlər əhadisə, qurana,*
*Çifaidə gecdir hələ qiyamət.*

*Qəzəb etsin tanrı belə millətə,*
*Rəva deyil bular girə cənnətə.*
*Nə vacibə qail, nə də sünnətə,*
*Görməsinlər peyğəmbərdən şəfaət!...*

*Bilmirəm ki, nədir bu işə çarə!*
*Gəlimmi mən Qarabağa dübarə?*
*Olmasa gər xandan cüzi işarə,*
*Əlifbey saridən olmanam rahat.*

"Dövlət" anlayışını aydın təfəkkürü ilə qəbul edib onun güc mərkəzinin siyasi iradədə cəmləşdiyinə zərrə qədər şübhə etməyən Axundovun "Görməsinlər peyğəmbərdən şəfaət"- dediyi, dini dəyərlər örtüyü altında gizlədilən canavar xislətli zümrənin ancaq xanın iradəsi ilə lokallaşdırıla biləcəyinə ümid işartılarını da görmək olur.

Şuşa ədəbi mühitinin rövnəqləşməsi, ecazkar cəlbediciliyi ilə təkcə Qarabağda deyil, hətta Azərbaycanın maddi və mənəvi sərhədlərindən kənara çıxaraq məşhurlaşması, ilk növbədə, Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın yeganə övladı Xurşidbanu Natəvanın şəxsiyyəti və yaradıcılığı ilə birbaşa bağlıdır.

Hesab edirik ki, ümumilikdə Natəvan və onun zamanı Azərbaycan ədəbiyyatının XX əsrin əvvəllərində Anna Axmatovanın yaradıcılığı ilə ədəbi ictimaiyyət arasında populyarlaşan və "Gümüş əsr" kimi qəbul edilən dövrü sayıla bilər. Ədəbi tənqid hesab edirdi ki, Aleksandr Puşkin və müasirlərinin yaşayıb yaratdığı XIX əsr "Qızıl əsr"dirsə, yaradıcı qadınların xüsusi iddia ilə meydana çıxıb parlamaları "Gümüş əsr" hesab oluna bilər.Bu, onunla izah oluna bilər ki, xan qızının istedadı və alicənablığı ətrafında birləşərək "Məclisi-üns" məclisindəki şairlər arasında qadınların sayı az deyildi. Bunlardan əlavə, bu məclisdə məşhur xanəndə və sazəndələr- Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Əbdülqəni, Sadıqcan və digərləri iştirak edirdilər.

Xurşidbanu Natəvan Azərbaycanın və onun ədəbiyyatının tarixinə Şərq qadınının simvollarından biri kimi düşüb. 2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi və şəxsən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsi qoyuldu. Bu, uzaq Avropa ölkəsində təkcə istedadlı şair və ardıcıl mesenantın təbliği nöqteyi-nəzərindən Şərq qadını obrazının deyil, bütövlükdə Azərbaycan qadınının təqdimatı demək idi.

XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 11 nüsxəbənd, 4 astronom, 18 memar, 16 həkim, 42 müəllimin olması faktı Şuşa şəhərinin mədəniyyət mərkəzinə çevrilməsində öz sözünü deyirdi. Bu insanlardan sonra gələn yeni nəsil, Parisdə ilk dəfə "Qarabağ folkloru" kitabını fransızca və orijinal mətnlərlə çap etdirən yazıçı, publisist diplomat, folklorşünas Ceyhun bəy Hacıbəyli, milli ideoloqlardan biri, yazıçı, publisist, alim Əhməd bəy Ağayev, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Fərhad Ağazadə, Zülfüqar Hacıbəyli, Firudin bəy Köçərli, Cabbar Qaryağdıoğlu, Xarrat Qulu, Sadıqcan, Məşədi İsi, Hacı Hüsü, Keçəçi Məhəmməd, Seyid və Xan Şuşinskilər, Zülfi Adıgözəlov, Sara Qədimova, Şövkət Ələkbərova, dünya şöhrətli vokalistlər Bülbül, Rəşid Behbudov, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov kimi istedadlı bəstəkarlar və daha onlarla fikir və söz, musiqi xadimləri Şuşa mühitinin yetirmələri olmaqla bərabər, həm də zəngin ənənələrin daşıyıcıları olublar.

Buna görədir ki, o mühit ancaq hansısa bir regionun deyil, bütövlükdə Azərbaycanın maddi-mənəvi dünyasının yuvası kimi qəbul edilir. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qəbul edilmiş qərar o yuvanın qorunmasına xidmət edirdi. Böyük dövlət adamı xalqımızın tolerantlığı ilə qidalanan, tarixi ərzində heç bir milli və dini dözümsüzlük faktı mühitində XIX əsrin 30-cu illərində burada məskunlaşdırılan erməni millətçiliyinin müəyyən məqamlarda baş qaldırdığını bilir və şəraitin verdiyi bütün imkanlardan maksimum yararlanırdı ki, şəhərin gələcək taleyini minimum təhlükəsiz etsin. Bu qərardan sonra Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımların atılması daha çox həmin faktorlarla bağlı idi. Ona görə idi ki, Şuşanın ictimai-siyasi və mədəni həyatında xidmətləri olan Molla Pənah Vaqifin məqbərəsi Ümummilli Liderin birbaşa göstərişi və iştirakı ilə tikildi.

1992-ci ilin may ayında Azərbaycana qarşı ərazi iddiaları ilə Ermənistanın başladığı işğalçı müharibənin gedişi zamanı erməni silahlı birləşmələri mədəniyyətimizin simvollarından olan bu şəhəri yerlə bir edərək xalqımızın tarixi ilə bağlı hər nə vardısa məhv etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci ildə imzaladığı "Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında" Sərəncamında Şuşa belə təqdim edilirdi: "Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir".

Buna görədir ki, 2020-ci ilin sentyabrında başlayan 44 günlük müharibənin yekunlarından biri olan hadisə, Şuşanın işğaldan azad edilməsi xalqımızın tarixində və yaddaşına yazılacaq möhtəşəm gün kimi həkk olundu. Bu, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il mayın 7-də imzalanan "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncamında xüsusi olaraq vurğulanır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2022-ci il yanvar ayının 5-də imzaladığı "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Sərəncamında ruhumuzun şəhərinin keşməkeşli taleyi təkrarən xatırlanır: "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır".

Həmin Sərəncamla 2022-ci il "Şuşa İli" elan edildi.

Bu, keçdiyimiz yola ehtiramın nümunəsidir.